# MƏN GETDİM DƏRDİM QALDI



Validə Küskün sözdə sənətdən küskün deyil, baxmayaraq ki, ədəbi təxəllüsü küskündür. Şeirləri də insan ağrılarının, əzablarının rəngini göstərməyə yönəlikdir. Bir neçə kitabın müəllifidir. Lap bir az da dəqiqləşdirsək yeddi kitabın. İndi kitabların adlarına diqqət edək. "Küsdüm sənnən a, dağlar", "Küskünü solduran dağlar" "Vətənə məhəbbət" "Göz yaşları verən dünya" "Yoxdur könlümü alanım" "Dərdlərin çarəsi"... və nəhayət bu il Türkiyədə işıq üzü görən şeir antologiyasında onun bir poetik buketi də dərc olunub. Kitabın başlanğıc qeydləri Türkiyyənin tanınan söz, bilim adamları, Bekir Alim və Sevgi Kavaturanın yazılarından ibarətdir. Müəlliflər yəni şairlər seçkisi şeir antologiyasını tərtib edənlər Validə Küskünün haqqındakı qeydləri və onun şeirlərini təsadüfi olaraq diqqətdə saxlamayıblar. Onlar Validə Küskünü oxuyarkən onun mənəvi mühitinin əsas çalarlarını şeirlərində duyublar. Hiss eləyiblər ki, Validə Küskünü, kitablarının adlarındakı küskünlük anlamı, dərd ifadələri, dağlara gümansızlıq duyğuları, təsadüfi deyil gəlişi gözəlin xatirinə işlənməyib. Bunlar Validə Küskünün həyat yaşantılarıdır. Onun duyğulanmaları iç aləmindən gəlir.

Baharda soldum, yağmurlu qışda,  
Sarala-sarala gəzdim dünyada,  
Mən bu dünyadan doymadım, kim nə deyir desin,  
mən ki, soldum dünyada.  
Doymadı gözüm, ellər güləndə mən,  
ağlaya-ağlaya gəzdim dünyada,  
heç kimə küsənə bilmədim, ey Tanrı bu dünyada?

Göründüyü kimi onun dünya ilə qovğası kinlə, qəzəblə dolu deyil, ancaq gileylə doludur. O, istəyir ki, dünya ilə insanlar arasında ziddiyyət olmasın. Onun mənəvi ölçüsü bundan ibarətdir ki, bu dünyada gərək "bir quşun da xətrinə dəymiyəsən" o, düşünür ki, güclü-




gücsüzü, zalım-məzlumu incitməsə onda dünya ilə insan arasındada ixtilaf olmaz. O, üzünü şairlərə tutur. Sevdiyi, ruhuna doğma olan şairlərin adlarını çəkir. Onlara müraciət edir ki, bir-birinizin qədrini bilin. Əgər bir-birinizi sevsəniz, tanrı da sizi qoruyar. "Bəlalı dağlar" poemasıında üç əsas obraz diqqəti cəlb edir. Birincisi dağlardır, ikincisi əsərin lirik qəhrəmanıdır. Onun özünü biz Validə Küskün də adlandıra bilərik. Üçüncüsü də dağların da əsərin lirik qəhrəmanı Küskünün də sakin olduğu dünyadır. Beləliklə, biz onun gileyli duyğulanmaları içindən səslənən, boy göstərən əsas motivi görürük. "Yaz şair gördüyünü yaz" Küskünün düşüncəsinə görə şair gördüyünü yazmaqla dağlara da, dünyaya da sədaqətini hifz edə bilər. Onun bu sonsuz sevgisi bütün kitabları boyu yazılarına hopub. Yazılarında qəlbinin atəşi ilə öz yanğısını ifadə edir:

Qor içində kül kimiyəm,  
Dünyanın dərdi-qəmiyəm.  
Bir sınıq sazın simiyəm,  
Güclüyəm dərddən, qəmdən.

Yaxud onun təbiətə yönəlik sualları var. Istəyir ki, güllər üsdə qonan arıların çəmənnən nə yığdığını bilsin. Bir arının zəhməti də gərək itməsin. əgər insan-insanın zəhmətinə dəyər vermirsə onda dünyanın nizamı pozulur. Validə Küskün istəyir ki, hər kəs dünyada öz kamında yaşaya bilsin.

Doğrudur, Validə Küskün nə qədər gileyli olsa da dağları da, dünyanı da, insanları da bütün qəlbi ilə sevir. Elə bu səbəbdən də söz ruhundan, varlığından çağlayıb gəlir. O bu dünyanı sevə-sevə yaşayır.

***"KREDO"***

Kredo 2019.- 2 oktyabr.- S.15.